# Ermənistanın müharibə cinayətləri:
# *Ağdam rayonunda məcburi köçkün qəsəbələri hədəfə alınır*

Ermənistan silahlı bölmələri cəbhəyanı yaşayış məntəqələrində dinc əhalini, çoxsaylı ev və mülki obyektləri, sosial təyinatlı binaları hədəfə almaqda davam edir.











AZƏRTAC-ın cəbhə bölgəsinə ezam olunmuş müxbiri xəbər verir ki, düşmən rayonun cəbhəyanı kəndləri ilə yanaşı, məcburi köçkünlər üçün salınmış qəsəbələri də artilleriya atəşinə tutur. Erməni hərbçilərinin genişmiqyaslı təxribatları nəticəsində təkcə Birinci Baharlı qəsəbəsində sentyabrın 27-dən indiyədək 13 ev, məktəb və uşaq bağçası dağılıb, 2 ev yanıb, 50-dən artıq evə, 3 mağazaya ziyan dəyib, 3 nəfər mülki şəxs yaralanıb, 9 baş mal-qara tələf olub.

Müxbirimiz Birinci Baharlı qəsəbəsinə gedərək erməni vəhşiliyinin izlərini lentə alıb, sakinlərlə həmsöhbət olub. Qəsəbənin mütəmadi olaraq atəşə tutulmasına, çoxsaylı dağıntılara baxmayaraq, sakinlərin əhvali-ruhiyyəsi yüksəkdir. Hər kəs ordumuza güvənir, qələbənin yaxında olacağına inanır.

Qəsəbə sakini Heydər Mirzəliyev deyib: “Sentyabrın 27-dən başlayaraq ermənilərin təxribatları, artilleriya atəşləri nəticəsində qəsəbəmizə ciddi ziyan dəyib. Sakinlərin yaşadığı evlər, həmçinin məktəb və uşaq bağçası hədəfə alınıb. Bütün bunlar erməni terrorunun, vandallığın göstəricisidir. Dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar isə ermənilərin bu vəhşiliyinə susur. Lakin ordumuz cəbhədə düşmənə lazımı cavabı verir. İşğalçı erməni ordusuna sarsıdıcı zərbələr vuraraq torpaqlarımızı azad edir. Ordumuzla qürur duyuruq. İnşallah, tezliklə qələbə sevincini yaşayacağımıza əminik”.

8-ci sinif şagirdi Şamil Məmmədovla düşmənin artilleriya atəşi nəticəsində dağılmış məktəbin qarşısında söhbət etdik. “Görürsünüz, məktəbimiz necə dağılıb. Partalar, kitablar... hər şey məhv olub. Təsəllimiz odur ki, düşmən vəhşiliklərinin cəzasını alır. Ordumuz onları məğlub edir, torpaqlarımızdan qovub çıxarır”, - deyə Ş.Məmmədov bildirib.